# Ən təhlükəsiz ölkə

## Azərbaycanın antiterror reytinqində ən yüksək yer tutması İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir

"Global Terrorism Index 2025" (GTI) hesabatına görə, Azərbaycan yenə də ən təhlükəsiz ölkələr arasında yer alıb. Reytinq sıralamasında öncə ərazisində terrorçuluq fəaliyyəti və terror təhlükəsi ən yüksək olan ölkələr yer alıb. Bu ölkələr arasında ilk sıralara - 1.Burkina Faso (8.581), 2.Pakistan (8.374), 3.Suriya (8.00) daxil edilib.




Qeyd olunan sıralamada İsrail (7.463) 8-ci, Rusiya (6.267) 16-cı, İran (6.056) 18-ci, Türkiyə (3.968) 32-ci, ABŞ (3.517) 34-cü, Fransa (2.712) 40-cı, Niderland (1.402) 60-cı, Norveç (1.198) 66-cı, Finlandiya və Yaponiya (0,949) 72-ci, Danimarka və Ermənistan (0.72) 79-cu, Avstriya və Cənubi Koreya (0.582) 82-ci, Latviya və Litva (0.423) 86-cı yerdə qərarlaşıb.

"Global Terrorism Index" (GTI) reytinq sıralanması indeksləri terror hadisələri, ölümlər, ağır nəticələr, girovlar, terrorçuluqla mübarizə, terrorçuluğun araşdırılması effektivliyi və digər çoxsaylı göstəricilər üzrə hesablamalara əsaslanır.

Azərbaycan terror təhlükəsi üzrə qeyd olunan sıralamada "0.233" indekslə 2024-cü illə müqayisədə (89) bir reytinq də yüksələrək 2025-ci ildə 90-cı yerdə qərarlaşmaqla, 1-dən 100-dək artan mümkün reytinq həddində dünyada terrorla bağlı ən təhlükəsiz ölkələrdən biri kimi yüksək reytinqə sahiblənib.

Beynəlxalq akademik institutlar, Birləşmiş Millətlər Təşkilatı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Dünya Bankı və digər beynəlxalq təşkilatlar üçün istinad mənbəyi kimi çıxış edən "Global Terrorism Index" hesabatları İqtisadiyyat və Sülh İnstitutu (Institute for Economics and Peace - IEP) tərəfindən dövri olaraq açıqlanır.

Azərbaycan belə təhlükəsizlik səviyyəsini destruktiv qüvvələrin dini, etnik və digər zəminlərdə pozucu planlarından meşələrdə sığınacaqlar yaradılması cəhdlərinədək hər cür terror-təxribat həmlələrinin olduğu bir şəraitdə əldə edib.

Beynəlxalq təşkilatların hesabatlarından göründüyü kimi, kifayət qədər həssas və mürəkkəb geosiyasi məkanda olsa da, uğurlu dövlət siyasəti nəticəsində bərqərar olmuş inkişaf, əmin-amanlıq, o cümlədən terrorçuluğa qarşı mübarizə sahəsində təhlükəsizlik orqanları tərəfindən görülən effektiv işlər sayəsində Azərbaycan son illər dünyada yüksək daxili təhlükəsizlik reytinqinə sahiblənib.

Bu hesabat da Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi, uğurlu daxili və xarici siyasəti, həmçinin hüquq-mühafizə orqanlarının peşəkarlığı nəticəsində ən təhlükəsiz ölkələrdən biri olduğunu təsdiqləyir.

Bu fakt Prezident İlham Əliyevin yürütdüyü siyasətin daxili sabitliyi, regional təhlükəsizliyi yüksək səviyyədə təmin etdiyini, bölgədə sağlam mühit formalaşdırdığını bir daha sübut edir. Azərbaycanın dünyanın antiterror reytinqində yüksək yerlərdən birini tutması həm də ölkəmizin hüquq-mühafizə orqanlarının yüksək peşəkarlığından, onların yaratdığı etibarlı təhlükəsizlik mühitindən xəbər verir.

Ümumiyyətlə, belə reytinqlər tərtib olunanda xüsusi xidmət orqanlarının, həmçinin hüquq-mühafizə orqanlarının keçirdiyi əməliyyat tədbirləri mütləq şəkildə nəzərə alınır. Eyni zamanda əməliyyat şəraitinin tam şəkildə nəzarətdə saxlanması üçün atılan addımlar da vacib məsələdir. Azərbaycan xüsusi xidmət orqanları ən ciddi təhdidlərdən biri sayılan dini radikal qruplaşmalara qarşı uğurlu tədbirlər görür. Bu qruplaşmalar dövlətçiliyə qarşı atılan addımlarla gündəmə gəlirlər. Odur ki, onların əvvəlcədən planlaşdırılmış terror aktlarının qarşısının alınması çox vacib elementdir. Buna görə də həm Daxili İşlər Nazirliyi, həm Dövlət Təhlükəsizlik Xidməti digər hüquq-mühafizə orqanları ilə koordinasiyalı şəkildə bu proseslərdə fəal iştirak edirlər.

Vətən müharibəsi və antiterror tədbirləri zamanı atılan addımlar da reytinqdə yüksəlmənin ən mühüm göstəricilərindən biridir. Məhz buna görə Azərbaycan xüsusi xidmət orqanları üzərlərinə düşən peşə hüquqlarını ən yüksək səviyyədə yerinə yetirirlər.

Bütün uğurlu göstəricilər Ali Baş Komandan İlham Əliyevin tapşırıqlarının yerinə yetirilməsi və xüsusi xidmət orqanlarına göstərdiyi qayğı sayəsində əldə olunur.

Bu gün dünyanın müxtəlif qütblərində baş verən toqquşmalar, müharibələr, terror təhlükələri, təhdidlər onu deməyə əsas verir ki, artıq beynəlxalq hüquq, insan haqları, ədalət prinsipləri yalnız sözdə səslənən terminlərə, fikirlərə çevrilib. Şükürlər olsun ki, hazırda dünyada ən sabit məkanlardan biri Cənubi Qafqazdır. Artıq bu regionda olan 30 illik müharibə, 200 illik münaqişə başa çatıb. İndi regionda yeni reallıqlar yaranıb. Bunun da müəllifi Prezident İlham Əliyevdir.

Düzdür, son zamanlarda Fransa kimi ölkələr Cənubi Qafqazda yenidən xaos yaratmağa çalışırlar. Əsas niyyətləri Azərbaycanın artan nüfuzuna xələl yetirmək və əldə etdiyi tarixi hərbi-siyasi Zəfərə kölgə salmaq, bölgəni yenidən qan çanağına çevirməkdir. Əlbəttə ki, bu hücumların, kampaniyaların heç bir təsiri olmayacaq. Çünki İlham Əliyevin də söylədiyi kimi, Azərbaycan Cənubi Qafqazın lider ölkəsidir və Bakının rəyi öyrənilmədən, maraqları nəzərə alınmadan bölgədə hər hansı addımın atılması mümkünsüzdür. Regionda söz sahibi Azərbaycandır və onun qüdrətli liderinin siyasətinin prioriteti bölgədə ilk növbədə sühün, təhlükəsizliyin təminatıdır. Məhz buna görə də "Global Terrorism Index 2025" hesabatında yer alan məlumatlar ölkəmizin, onun Prezidentinin və güc orqanlarının tarixi uğuru kimi dəyərləndirilə bilər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 19 mart (№ 60).- S.10.